Ədalət.-2019.-5 oktyabr.-S.12.

Qəmbər RƏŞİDOĞLU

## UNUTMAYAQ QARABAĞI

Köksümüzdə həsrət dağı
Ayrılığı saldı yağı
Gül-çiçəkdi Vətən bağı
Unutmayaq Qarabağı.

Ömrümün bu gözəl çağı
Zəfərlərlə aşaq dağı
Düşmənlərə çəkək dağı
Unutmayaq Qarabağı.

Mən də əsgərəm bu gənclik çağı
Fərhad kürüngüylə yaracaq dağı
Haydı zəfərlərə talansın yağı
Unutmayaq Qarabağı.
Azad edək Qarabağı.

## DUALARIM

Yerləri, göyləri xəlq edən Allah
Əl açıb diz çöküb yalvarırıq biz.
Qoru bu dünyanı yaradan Allah...
Qoyma göylər uçsun yerlər dağılsın.

Qəlbimizdə imanımız,
Əlimizdə Quranımız
Qoyma qaralsın qanımız
Xalqı qoru bəlalardan
Şimşək dolu xətalardan.

Əməli saleh yarat bizi
Abad eylə elimizi.
Vaxtsız bükmə belimizi
İnsanlığın xatirinə
Tanrım özün xatirinə.

Yaxşılara verər aman
Qoyma mərdə gəlsin yaman
Qoyma dayansın bu zaman
Bağla bizi öz həqqinə
Tanrım özün xatirinə.